**ZÜMRÜD SƏFƏROVA**

AZƏRBAYCAN RADİOSU – 100

# HƏYAT EFİR KİMİDİR

*Radiolu günlərdən*

QANUN NƏŞRİYYATI

*Bu kitab Azərbaycan radiosunun unudulmaz simaları, yaradıcı mühiti və bir dövrün mənəvi atmosferi haqqında yazılmış xatirə-publisistik topludur. Müəllif uzun illər çalışdığı Radio mühitində qarşılaşdığı insanları – jurnalistləri, diktorları, redaktorları, rejissorları, ziyalıları sevgi, hörmət və incə yumorla oxucuya təqdim edir. Media tarixinə, xatirə ədəbiyyatına və səmimi insan portretlərinə maraq göstərən oxucular üçün dəyərli mənbədir.*

## ÖN SÖZ

100 yaşlı Azərbaycan Radiosunun milli mətbuatın formalaşmasında və inkişafında rolu ölçüyəgəlməzdir. Yazılı mətbuatın imkanlarının məhdud olduğu dövrlərdə radio informasiyanın ən operativ, ən əlçatan və ən təsirli vasitəsi kimi çıxış edib. Xəbər, maarifçilik ideyaları, milli-mədəni dəyərlər məhz radionun efiri vasitəsilə uzaq kəndlərə, ucqar bölgələrə çatdırılıb. Bu mənada Azərbaycan Radiosu təkcə informasiya mənbəyi deyil, həm də milli düşüncənin, ictimai şüurun formalaşdığı mühüm bir tribuna olub.

Radionun fəaliyyəti heç vaxt yalnız xəbərlərin yayılması ilə məhdudlaşmayıb, cəmiyyətin maariflənməsi, milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından əvəzsiz rol oynayıb. Ədəbiyyat, incəsənət, musiqi, tarix və dil mövzularında hazırlanan proqramlar dinləyicilərin dünyagörüşünü genişləndirib, milli kimliyin möhkəmlənməsinə xidmət edib. Azərbaycan Radiosu eyni zamanda ölkənin ictimai-siyasi və mədəni həyatında görkəmli simaların yetişdiyi bir məktəb funksiyasını da yerinə yetirib. Onun efirindən keçən minlərlə jurnalist, yazıçı, şair, musiqiçi və ictimai xadim sonradan Azərbay-

can mədəniyyətinin və mətbuatının aparıcı simalarına çevrilib. Bu baxımdan Azərbaycan Radiosu təkcə bir media qurumu deyil, milli mətbuatın yaddaşı, məktəbi və mənəvi dayağı kimi tarixə düşüb.

Mənim mənsub olduğum ailə Azərbaycan Radiosunun 100 illik tarixinin təxminən 60 ili ilə bağlıdır. Atam, tərcüməçi, jurnalist Natiq Səfərov əmək fəaliyyətinə radioda başlayıb. Sonralar – 1970-ci illərdə radiodan ayrılaraq "Azərbaycan" jurnalında çalışıb. Anam Zümrüd Səfərova isə uzun illər radioda fəaliyyət göstərib, daha sonra AzTV-də kitabxana müdiri vəzifəsində çalışaraq oradan təqaüdə çıxıb.

Uşaqlıq illərim radionun divarları arasında keçib. Burdakı isti, səmimi, doğma mühit mənim təsəvvürümdə radionu analoqu olmayan bir məkana çevirmişdi. Öz-özümə deyirdim: "Böyüyəndə mütləq radioda işləyəcəyəm, insan yalnız burda işləməlidir". Elə də oldu – 18 yaşım tamam olmamış radioda redaktor kimi fəaliyyətə başladım.

Anamın radioda çalışdığı 1960–80-ci illər Azərbaycan Radiosunun ən maraqlı, ən səmimi dövrlərindən idi. Bu kitabda məhz həmin illərin ab-havası, radionun görünməyən tərəfləri, efirin arxasında qalan insan taleləri, münasibətlər və xırda, amma çox mənalı detallar canlandırılır.

Zümrüd Səfərova radio ilə bağlı xatirələrini akademik dildən, rəsmiyyətçilikdən uzaq, elə radionun öz dili kimi səmimi, sadə və təbii üslubda

qələmə alıb. Kitabda yer alan əhvalatlar radionun pərdəarxası insan talelərini işıqlandırmaqla bərabər, tanınmış sənət, ədəbiyyat və media adamlarının xarakterinə güzgü tutur, onların çoxlarına məlum olmayan cəhətlərini üzə çıxarır. Bu yazılar rəsmi bioqrafiyalardan fərqli olaraq, canlı müşahidələrə, şəxsi yaddaşa və daxili səmimiyyətə söykənir.

Kitabın əsas məziyyətlərindən biri də ondadır ki, burada radio yalnız bir qurum kimi deyil, insan yetişdirən bir mühit, mənəvi məktəb kimi təqdim olunur. Müəllif hadisələri şişirtmir, idealizə etmir, amma hər detalda sevgi, hörmət və məsuliyyət hiss olunur. Oxucu bu kitabda radionu insanları ilə tanıyır.

Bu nəşr Azərbaycan Radiosunun yüz illik yoluna insani baxış, yaddaşdan gələn səmimi etiraf və mədəniyyət tariximizə hörmətin ifadəsidir. Bu baxımdan kitab Azərbaycan Radiosunun 100 illiyinə dəyərli, mənalı və qalıcı bir töhfədir.

*Günel Natiq,*
*Azərbaycan Televiziya və Radio Verilişləri*
*QSC-nin əməkdaşı.*

# MÜƏLLİFDƏN

Azərbaycan Radiosunda keçən 40 il ömrümün ən gözəl, ən mənalı illəri olub. İşə başladığım gün indi də xatirimdədir – 1965-ci il avqustun 11-i. Sanki dünən idi. O gün radionun qapısından içəri girəndə bilmirdim ki, bu məkan taleyimə çevriləcək, ömrümün böyük bir hissi burada keçəcək.

Radio mənim üçün heç vaxt sadəcə iş yeri olmayıb. O, doğma ocaq idi. Burdakı səmimiyyət, mehribanlıq, insanların bir-birinə isti münasibəti bu gün də yaddaşımdan silinmir.

Azərbaycan Radiosunda ömrümün nə az, nə çox – düz 40 ili keçib. Bu illər ərzində gördüyüm insanlar, yaşadığım hadisələr, eşitdiyim söhbətlər, şahidi olduğum münasibətlər təkcə peşə yaddaşı deyil, həyat dərsi olub. Kimsənin xətrinə dəyməyən zarafatlar, baməzə söhbətlər, bəzən xırda görünən, amma insanı tanıdan əhvalatlar… Bu gün onların hər biri mənim üçün unudulmaz xatirəyə çevrilib.

Elə bu hisslərlə də ara-sıra onları qələmə aldım. Yazdıqlarım rəsmi xronika deyil, təhlil iddiası da daşımır. Bunlar sadəcə gördüklərim, yaşadıqlarım və yaddaşıma hopan anlardır.

Bu kitabda əsasən Azərbaycan Radiosunun 1960–80-ci illərini əhatə edən dövrün ab-havası, insanları, münasibətləri əks olunub. Həmin illər radionun həm yaradıcı, həm də insani baxımdan çox səmimi, canlı və məhsuldar dövrü idi. Burada çalışmış sənət, ədəbiyyat və media adamları haqqında danışarkən onları ideallaşdırmağa çalışmamışam. Sadəcə xatırladığım kimi, gördüyüm kimi yazmışam.

Azərbaycan Radiosunun yaranmasının 100 illiyi ərəfəsində bu xatirələri oxucularla bölüşmək istədim. Çünki düşünürəm ki, radio təkcə efirdən səslənən sözlərdən ibarət olmayıb. Onu yaşadan insanlar, münasibətlər, dəyərlər olub. Bu kitab da məhz həmin yaddaşın bir parçasıdır.

*Zümrüd Səfərova,*
*Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin veteranı.*

## RADİONUN SƏSİ, YADDAŞIN DİLİ ...

Azərbaycan radiosunun veteranı, nəsildən-nəslə ötürülən radio mədəniyyətinin daşıyıcısı, məsuliyyəti, zəhmətsevərliyi, işinə vicdanlı münasibəti ilə hamının hörmətini qazanmış Zümrüd Səfərovanın qələmə aldığı bu kitabda radionun tarixində izi olan sənət və media adamları haqqında nadir, yazılmamış əhvalatlar toplanıb. Bunlar nə rəsmi bioqrafiyalarda var, nə də arxiv sənədlərində. Bunlar illərin içindən süzülüb gələn və Zümrüd xanımın yaddaşında qorunub saxlanılan xatirələrdir. Elə buna görə də bu kitab sənədli memuar nümunəsidir. Lirikdir, canlıdır, dəyərlidir. Dəyərlidir ona görə ki, yaşanmışların izi var bu kitabda...

Redaksiyaların gündəlik rutini, adi görünən, amma insan xarakterini açan məqamlar, iş prosesində baş verən macəra və zarafatlar... Radio bu kitabda sadəcə bir qurum kimi yox, bir məktəb, bir ailə kimi təqdim olunub.

Müəllif pafosdan, süni bəzəkdən uzaqdır. Əhvalatlar sadə, səmimi və danışıq dilinə yaxın üslubda qələmə alınıb. Oxuyarkən elə bilirsən ki, Zümrüd xanım qarşında əyləşib və xatirələri səninlə bölüşür. Bu səmimiyyət mətni oxunaqlı edir.